**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2020 - № 57**

UOT № 343.3

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNDƏEKOLOJİ CİNAYƏTLƏR

**Ş.Ə.Hüseynova**
Azərbaycan Milli Aviasiya Akademiyası
Bakı, Mərdəkan prospekti 30
e-mail: shakhlahuseynova@mail.ru

***Açar sözlər:*** cinayət hüququ, ekoloji cinayət, ətraf mühit
***Keywords:*** criminal law, environmental crime, environment
***Ключевые слова:*** уголовное право, экологическое преступление, окружающая среда

Müasir cinayət hüququnda ekoloji cinayət anlayışının məzmunu təhlil edilərkən, onun hüquqi təbiəti və səciyyəvi cəhətləri müəyyən edilərkən qadağan olunan davranışın ictimai təhlükəsi ilə yanaşı, bu əməllərin ekolojiliyi də nəzərə alınır. Ekoloji cinayətlərə dair müxtəlif məsələləri tədqiq edən müəlliflər arasında geniş yayılmış fikrə görə, cinayətin ekoloji xarakter daşıması bir sıra əlamətlər əsasında və ekoloji əhəmiyyətli davranış anlayışı nəzərə alınmaqla müəyyən edilə bilər. Bu və ya digər hüquq pozuntusunun ekoloji xarakter daşıması və ya onların ekoloji cinayətlərə aid edilməsi cəmiyyət ilə təbiət arasında qarşılıqlı əlaqələrin sosial və təbii qanunauyğunluğuna əsaslanmalıdır. Ekolojilik həm də dövlətin inkişafının səviyyəsini, insan fəaliyyətinin müxtəlif növlərini, elm və texnologiyaların vəziyyətini və digər amilləri əks etdirməlidir.

Ekoloji cinayət anlayışının hüquqi təbiətini aydınlaşdırmaq üçün ekoloji əhəmiyyətli davranış məsələsi böyük əhəmiyyət kəsb edir. Bu cür davranış dedikdə, ətraf mühitdən istifadə edən və həmin mühitdə qanunla qorunan ictimai maraqlara toxunan dəyişikliklər doğuran (doğura bilən) ayrı-ayrı insanların və ya kollektivlərin ideal şərtlənmiş iradi hərəkətlərinin məcmusu başa düşülür.

Bu halda məxsusiyyət ondan ibarətdir ki, sadaladığımız əlamətlər ətraf mühitin mühafizəsi sahəsində cinayətlərin ümumi əlamətləri ilə müqayisə edilə bilәndir və cinayətləri ekoloji cinayətlərə çevirir. Təbii ki, bu növ cinayətlər ətraf mühit obyektlərindən istifadə edilərkən, insanın təsərrüfat fəaliyyəti prosesində ətraf mühitin ayrılmaz hissəsi olan elementlərə (su, hava, torpaq və s.) münasibətdə müvafiq hərəkətlər edilərkən yaranır. Bu əlamət ekoloji cinayətləri və təbii mühitə hüquqazidd təsirlərin növlərini, məsələn, suyun və sututarların çirkləndirilməsini konkretləşdirir. Həmin cinayətlər təbii obyektlərin öyrənilməsi prosesində, insanın sağlamlığına mənfi təsir göstərən maddələrlə atmosferi çirkləndirməklə onun vəziyyətinə neqativ təsir göstərə biləcək məqsədəmüvafiq olmayan və qeyri-qənaətedici texnologiyalardan istifadə edilməsizamanı yarana bilər.

Məlum olduğu kimi, ictimai təhlükə - hüquq pozuntusunun sosial siyasi xarakteristikasıdır, əməlin hüquqazidd olması isə hüquq pozuntusunun bu xüsusiyyətinin hüquqi ifadəsidir. Xüsusiyyətlərindən biri bundan ibarətdir ki, hər iki əlamət ekoloji cinayətlərin hüquqi təbiətini və onların dövlətin və cəmiyyətin sosial inkişafına təsirini başa düşmək üçün çox əhəmiyyətlidir. Onlar (hər iki əlamət) həm müxtəlif ekoloji cinayətlərə qarşı mübarizə tədbirləri müəyyən edilərkən, həm də bu növ cinayətlərə görə cinayət hüquq məsuliyyəti barədə effektiv müddəaların işlənib hazırlanması üçün vacibdir.

Y.Demidovun fikri ilə də razılaşmaq gərəkdi. O qeyd edirdi ki, ictimai təhlükənin mahiyyətini anlamaq üçün K.Marksın belə bir qeydi metodoloji baxımdan müstəsna

əhəmiyyət kəsb edir: əməlin cinayət mahiyyəti meşəyə maddi varlıq kimi qəsd edilməsində deyil, onun dövlət sinirinə - mülkiyyət hüququna qəsd edilməsindən ibarətdir (3, s.149). Ekoloji vəziyyətin hər yerdə kəskin pisləşməsi şəraitində təbii obyekt olan meşəyə qəsd edilməsi, mülkiyyət münasibətlərindən asılı olmayaraq, təbii ki, ictimai-təhlükəli məna kəsb edir.

Bununla yanaşı, ekoloji cinayətlərə xas olan ictimai təhlükə həm keyfiyyət, həm dəkəmiyyət xarakteristikalarına malikdir. Bu xarakteristikaların hər biri bir sıra qaydalarla müəyyən edilir, məsələn, keyfiyyət xarakteristikası adətən həmin neqativ əmələ (hərəkətə və ya hərəkətsizliyə) qarşı qoyulan sosial dəyərlərin xarakteri ilə, eləcə də bu əməl ilə cəmiyyətin, şəxsiyyətin, dövlətin həqiqi maraqları və imkanları arasında fərqlərlə müəyyən olunur. Bundan əlavə, keyfiyyət xarakteristikası davranışın bütün məzmunu ilə, ekoloji cinayətin tərkibi müəyyən edildikdə isə bu cinayət tərkibinin bütün əlamətləri (cinayət əməlinin obyekti, subyekti, obyektiv və subyektiv cəhətləri) ilə müəyyən edilə bilər. Təsadüfi deyildir ki, geniş yayılmış bir fikrə görə, məsələn, ehtiyatsızlıq üzündən sututarının çirkləndirilməsi bu əməlin qəsdən törədilməsi ilə müqayisədə, hətta vurulmuş ziyanın həcmi eyni olduqda belə ictimai təhlükəsi daha az olan əməl hesab edilir.

Ekoloji cinayətlərin ictimai təhlükəsinin kəmiyyət xarakteristikası ilə əlaqədar qeyd etmək lazımdır ki, bu xarakteristika eyni növlü cinayətləri, bəzi hallarda isə müxtəlif ekoloji cinayətlərin ayrı-ayrı yarımqruplarını bir-biri ilə tutuşdurmağa (müqayisə etməyə) imkan verir. İctimai təhlükənin bu cür qiymətləndirilməsi, məsələn, onun dərəcəsində ifadə oluna bilər, qanunvericilik baxımından isə törədilmiş hüquqazidd əmələ görə sanksiyalarda və ya cinayət hüquq məsuliyyətinin məzmununda öz əksini tapır.

Ekoloji cinayətlərin ictimai təhlükəsinin və onun kəmiyyət və keyfiyyət xarakteristikalarının düzgün qiymətləndirilməsi müasir cinayət hüququnun mühüm və heç də sadə olmayan məsələlərindən biridir. Bundan əlavə, ictimai təhlükənin normasında əks etdirmə bir sıra amillərdən, məsələn, cinayət hüququ yaradıcılıngında tətbiq edilən qanunvericilik texnikasından, cəmiyyətin aktual mənafelərinin dərk edilməsindən və sair amillərdən asılıdır. Eyni zamanda, ictimai təhlükənin qanunvericilik təsbiti cinayət hüquq məsuliyyətinin effektivliyi və ekoloji cinayətin tərkibinin əlamətlərinin sosial hüquqi baxımdan öyrənilməsi üçün mühüm şərtdir.

Müxtəlif növləri ola biləcək ekoloji cinayətlərin hüquqazidd olması mürəkkəb hüquqi vəziyyət yaradır. Buna görə də qarışıq hüquqaziddlik olduqda elə bir vəziyyət yarana bilər ki, cinayətin tərkibi və ona görə məsuliyyət hüququn müvafiq sanksiyalardan istifadə edilməsini nəzərdə tutan hüququn müxtəlif sahələrinin (məsələn, ekoloji hüquq, suhüququ, torpaq hüququ, cinayət hüququ və digər sahələrin) normaları ilə tənzimlənəcəkdir.

Ekoloji cinayətlərin bir xüsusiyyəti də ondan ibarətdir ki, onlara verilən hüquqi qiymət adətən dəyişkən olur, bəzən cəmiyyət tərəfindən bu cinayətlərin ictimai təhlükəsi eyni şəkildə qəbul edilmir. Müvafiq kriminoloji əlamətlərin mövcud olması və ekoloji cinayətlərin spesifik obyekti bu məsələnin həllinə şərait yaradır.

Bununla əlaqədar, ekoloji cinayətlər problemini tədqiq edərkən cinayət hüququ sahəsində mütəxəssis olan bəzi hüquqşünasların, məsələn, T.Buşuyeva və P.Dagelin mövqeyi diqqəti cəlb edir. Onlar təbiətdən istifadə sahəsində cinayətlərin cinsi obyekti dedikdə, cəmiyyətin mövcud olmasının və fəaliyyətinin əsası kimi ətraf mühit üzrə insanlar arasında normal münasibətlərin mövcud olmasını nəzərdə tuturlar. Həmin ictimai münasibətlər «insan - ətraf mühit» sisteminin fəaliyyətinə şərait yaradır, həm təbii resurslardan istifadə edilməsi, həm də insanın təbiəti saxlamaq və artırmaq üçün ona məqsədyönlü şəkildə təsir göstərməsi məsələlərini əks etdirir. Bu halda ayrı-ayrı cinayətlərin bilavasitə obyektləri kimi insanın həyatında ətraf mühitin funksiyaları ilə müəyyən edilən sosial dəyərlər çıxış edir (2, s.78-79).

Ekoloji cinayətlər barədə cinayət hüquq müddəalarının inkişaf etdirilməsi baxımından ətraf mühitin mühafizəsi sahəsində cinayətkar qəsdlərin obyektləri məsələsinə toxunan digər müəlliflərin fikirləri də müəyyən elmi maraq kəsb edir. Bəzi müəlliflər, məsələn V.Pakutinin

söylədiyi belə bir fikrə görə, ekoloji cinayətlərin obyekti kimi «təbiəti mühafizə mənafeyi» xüsusi qeyd edilməlidir. Bu obyekt təbiətə qarşı bütün cinayətlər üçün vahid olub təbii şəraitin keyfiyyətini və kəmiyyətini elə vəziyyətdə saxlamağı nəzərdə tutur ki, insanlar bioloji və sosial varlıqlar kimi həm salamat qala bilsin, həm də sosial tərəqqi yolunda inkişaf etsinlər (4, s.25).

O.Dubovik və A.Jalinski hesab edirlər ki, ekoloji cinayətin obyekti faktiki ictimai münasibətlərin və onların hüquqi formasının mürəkkəb bir kompleksi kimi müəyyən edilə bilər. Həmin münasibətlərin səmərəli şəkildə həyata keçirilməsi fəaliyyətinin bilavasitə əsası kimi və digər sosial tələbatların ödənilməsi üçün ətraf mühitdən istifadə edilməsi üzrə insanın optimal həyat fəaliyyətini təmin edir.

Göründüyü kimi, cinayətlərin və cinayət tərkiblərinin bu qrupu cinayət hüququ baxımından hüquq pozuntularının müstəqil bir növü hesab edilir, buna görə də Azərbaycan Respublikasının və digər yeni suveren dövlətlərin hazırda qüvvədə olan cinayət məcəllələrində ekoloji cinayətlər, haqlı olaraq, ayrıca bir fəslə ayrılmışdır.

Bu məcəllələrdə insanı əhatə edən təbii mühitə cinayətkar qəsdlərin (qəsdlərin ayrı-ayrı növlərinin) tərkibini və məzmununu müəyyən edən ətraflı və səmərəli normalar, bu cür əməllərə görə, o cümlədən suların, sututarların və digər təbii obyektlərin və resursların çirkləndirilməsinə görə, ətraf mühitin ayrı-ayrı elementlərinə cinayətkar qəsdlərə, məsələn, dövlətlərin inkişafının müasir şəraitində brakonyerliyə, təbii abidələrin məhv edilməsinə və ya zədələnməsinə və s. görə cinayət hüquq məsuliyyətini müəyyən edən normalar vardır.

Onu da demək olar ki, yeni suveren dövlətlərin cinayət məcəllələrinin müvafiq fəsillərində ekoloji cinayətlər barədə bu cür normalar ətraf mühitə qəsdlərlə bağlı cinayət hüquq qadağaları sistemini qanunauyğun və dialektik tərzdə gücləndirir, ətraf təbii mühitə,onun elementlərinə, eləcə də insanın həyat fəaliyyətinin və dövlətin inkişafının ən mühüm şərtlərindən biri olan ətraf mühitdən səmərəli istifadə edilməsi ilə bağlı ictimai münasibətlərə ciddi zərər (ziyan) vuran hər hansı təqsirkar əməllər (hərəkət və ya hərəkətsizlik) cinayət kimi cəzalandırılmalı əməllər elan edilir.

Ətraf təbii mühitə cinayətkar qəsdlərin obyektlərinin bu siyahısını nəzərə alaraq, ekoloji cinayətlərin anlayışını, tərkibini və müvafiq əlamətləri təşkil edən müəyyən cinayət hüquq meyarlarını və tələbləri göstərmək olar. Onların arasında ən vacibləri bu növ cinayətin obyekti, subyekti, subyektiv cəhəti (təqsirin məzmununu real açıqlayan məqsəd və motiv), eləcə də bu növ cinayətin obyektiv cəhətidir.

Cinayət hüquq məsuliyyətinin növləri və onun inzibati və ya hər hansı başqa məsu-liyyət növü ilə müqayisə edilməsi xüsusi tədqiqat və araşdırma aparılmasını tələb edir. Lakin hazırki qanunvericilikdə, məsələn, ekoloji cinayətin və ya insanı əhatə edən təbii mühitin elementlərinə qəsdin tərkibini təşkil edən, əməlin (hərəkət və ya hərəkətsizlik) nəticələrinə aid olan fərqləndirici əlamətləri nəzərdə tutan müddəalar kifayət qədərdir.

Mövcud qanunvericilikdə nəzərdə tutulan məsuliyyətin diferensiasiyası, adətən, subyektin hüquqazidd davranışının xarakterini və xüsusiyyətlərini, ekoloji cinayətlərə görə ictimai təhlükənin müxtəlif dərəcəsini düzgün nəzərə alır. Bu növ cinayətlər barəsində müəyyən qadağalar (məhdudiyyətlər) müəyyən edən cinayət hüquq normalarının tələbləri həm hüquqazidd olan konkret əməlin, həm də onu doğurmuş səbəblərin, şəraitin müvafiq təhlilinin aparılmasının zəruriliyinə yönəlir.

Yuxarıda deyilənlər bunu qeyd etməyə əsas verir ki, bütün ekoloji cinayətlər kifayət qədər spesifik olub, hüquqazidd olan konkret əməlin və onun özünəməxsus xassələrinin həqiqətən mövcud olmasından ibarət real xarakter daşıyır.

Azərbaycan Respublikasının və MDB üzvü olan digər dövlətlərin hazırda qüvvədə olan cinayət məcəllələrinin bir xüsusiyyəti ondan ibarətdir ki, həmin məcəllələrdə ekoloji mənafelərə qəsdlərin qarşısının alınmasına yönəlmiş normalar təsbit edilmişdir. Həmin qəsdlər həm əməlin (hərəkətin və ya hərəkətsizliyin) xarakterinə, həm də nəticələrin ağırlığına görə yüksək ictimai təhlükə dərəcəsinə malikdir.

Digər xüsusiyyət ondadır ki, hazırda qüvvədə olan cinayət məcəllələrində ekoloji cinayət hüquq qadağaları müəyyən edilərkən xüsusi normalara üstünlük verilməklə, eyni zamanda ümumi normalardan da imtina edilmir. Məsələn, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin «Ekoloji cinayətlər» adlı 28-ci fəslində on beş maddə birləşdirilir. Bu maddələrdə ətraf təbii mühitin mühafizəsi sahəsində hüquqazidd olan on beş əmələ görə cinayət hüquq məsuliyyəti nəzərdə tutulmuşdur. Məcəllədə qəsdlərin bilavasitə obyektindən və ya predmetindən (komponentindən) asılı olaraq, bütün ekoloji cinayətlər ümumi (bütövlükdə təbiətə qəsd) və xüsusi (təbii mühitin müəyyən komponentlərinə qəsd)ekoloji cinayətlərə bölünür. Bununla bərabər Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ümumi ekoloji cinayətlərə görə məsuliyyət barədə aşağıdakı qaydaların pozulması ilə əlaqədar üç cinayət hüquq norması vardır: işlərin yerinə yetirilməsi zamanı ətraf mühitin mühafizəsi (qorunması) qaydalarını pozma - maddə 247, ekoloji cəhətdən təhlükəli maddələrin və tullantıların dövriyyəsi qaydalarını pozma - maddə 248, baytarlıq qaydalarını və bitki xəstəliklərinə və ziyanvericilərinə qarşı müəyyən edilmiş mübarizə qaydalarını pozma - maddə 249 (1).

Suyu (su mənbələrini) çirkləndirmə (CM-in 250-ci maddəsi) suya (su mənbələrinə)təsirin, onların təbii xassələrinin dəyişdirilməsinin müxtəlif qanunsuz formalarma görə məsuliyyət müəyyən edir. Cinayətin bilavasitə obyektini su ehtiyatlarının və onun bağlı ekosisteminin mühafizəsi təşkil edir. Cinayətin predmeti - yerüstü və ya yeraltı sular, içməli su təchizatı mənbələri, heyvan və bitki aləmi, balıq ehtiyatları, meşə və kənd təsərrüfatıdır. Yerüstü sular dedikdə, daim vəya müvəqqəti olaraq, yerin üst qatındakı obyektlərdə olan sular nəzərdə tutulur. Yerüstü sular yerüstü su axınlarına və onların üzərindəki su anbarlarına, yerüstü sututarlarına bölünür. Yerüstü su axınlarına suyu daim hərəkətdə olan yerüstü su obyektləri, yerüstü su anbarlarına isə, çaylar, onların üzərindəki su anbarları, bulaqlar, su ehtiyatlarının höv- zələrarası yenidən paylanma və kompleks isti-fadə kanalları aiddir. Yerüstü sututarları - suyu təbii və ya süni çuxurlarda yavaşlandırıl- mış şəkildə mübadilə edilən yerüstü su obyektlərinə (məsələn, göllər, su anbarları, bataqlıqlar və s.) deyilir. Yeraltı sular dedikdə, yerin alt qatındakı su obyektlərində olan sular, o cümlədən mineral sular başa düşülür, məsələn, yeraltı su hövzəsi, yeraltı su yatağı və yeraltı suların təbii şəkildə yerin üstünə çıxması və s.

Cinayətin obyektiv cəhəti yerüstü və ya yeraltı sularm, içməli su təçhizatı mənbələrinin çirkləndirilməsinə, tükənməsinə və ya onların təbii xassələrinin başqa cür dəyişdirilməsinə gətirib çıxaran əməllərdə (hərəkətlərdə və ya hərəkətsizlikdə) ifadə olunur. Suları çirkləndirmə dedikdə, yerüstü və ya yeraltı su təchizatı mənbələrinin çirkləndirici maddələrlə hopdurulması başa düşülür ki, bu da suların kimyəvi və ya digər təbii keyfiyyətlərinin dəyişməsinə, yolverilməz qatışıqlarm (canlı aləm üçün zərərli olan) meydana gəlməsinə səbəb olur.

Əməlin düzgün tövsif edilməsinin zəruri şərti heyvanlar və ya bitki aləminə, balıq və digər su bioresurslarına, meşə və ya kənd təsərrüfatına əhəmiyyətli zərərin vurulmasının müəyyən edilməsidir. Belə zərər müəyyən növ heyvanların və ya bitkilərin məhvində, çirkləndirmə səbəbindən torpaqların növbəli əkindən çıxarılmasında və s. ifadə oluna bilər.

**Ədəbiyyat**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2020, 672 s.

Бушуева Т.А., Дагель П.С. Объект уголовно-правовой охраны природы // Совет-ское государство и право. - М.: Наука, 1977, № 8. - с.77-84

Маркс К., Энгельс Ф. Из ранних произведений. М.: Издательство Политической литературы, 1956, т. 1, 700 с.

Пакутин В.Д. Уголовно-правовая охрана внешней природной среды (объект исистема преступлений). Уфа, 1977, 79 с.

## ENVIRONMENTAL CRIMES IN THE LEGISLATIONOFTHE REPUBLIC OF AZERBAIJAN

**Sh.A.Huseynova**

**SUMMARY**

This article claims that the environmental safety is a priority object not only for the state, but also for society, because a negative environmental situation is a great danger. Therefore, the states use the practice of adopting appropriate regulations governing special issues encountered in the field of environmental protection.

## ЭКОЛОГИЧЕСКИЕ ПРЕСТУПЛЕНИЯ В ЗАКОНОДАТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Ш.А.Гусейнова**

**РЕЗЮМЕ**

В статье утверждается, что экологическая безопасность является первоочередным объектом не только для государства, но и для общества, потомучто негативное экологическое положение представляет большую опасность. Поэтому государства используют практику принятия соответствующих нормативных актов, регулирующих особые вопросы, встречающихся в сфере защиты окружающей природной среды.

*Məqalə redaksiyaya 26 noyabr 2020 tarixində daxil olmuş, 27 noyabr 2020 tarixində isə çapa qəbul olunmuşdur.*